# ƏDƏBİ YAŞANTILAR VƏ YA GÜNDƏLİKDƏN SƏTİRLƏR

*(Əvvəli ötən saylarımızda)*

**27 MART 1976.** Bu gün səhər tezdən işə gedərkən bizim sexdən baş - gözü əzilmiş və bədəhi büsbütün qana bulaşmış bir meyit tapdılar. Bu 20 yaşlı gənc bir oğlan idi. Nəbzini yoxladılar, ürəyi hələ döyünürdü. Gəncin sağ qala biləcəyinə ümid bəsləyənlər də oldu. Onu cəld zavodun tibb məntəqəsinə çatdırdılar, sonra isə təcili yardım maşını ilə Semaşko adına xəstəxanaya apardılar.

Yaralı gəncin adı Yəhyadır. O, mənimlə bir briqadada çalışırdı. Özü Quba rayonunun İkinci Nügədi kəndindən idi. Hərbi xidmətdən dörd ay əvvəl qayıtmışdı və iki aya yaxın idi ki, bizim zavodda işləyirdi. Onun mənimlə münasibətləri çox yaxşı idi. Bir dəfə də olsa ondan azacıq belə inciməmişdim. Söz deyərkən, zarafatlaşarkən şaqqanaq çəkib ürəkdən gülməyi, şənlənməyi sevərdi, özü isə heç kəsin xətrinə dəyməz, şit zarafat edənləri qəti xoşlamazdı. O, mənim xətrimi çoxlarından artıq istəyirdi, bu səbəbdən də ürəyinin bütün sirlərini çox zaman mənə açırdı. Mən yatımavtomat tokar dəzgahında işləyirəm, o isə frezerçi idi. Frezer dəzgahları tokar dəzgahlarından sonra yerləşir, mənim hazırladığım detalları o qəbul edərək öz dəzgahından keçirirdi. Çox vaxt işə birlikdə gəlib-gedirdik.

Yataqxanada cəmi bir qırmızı guşə var ki, o da birinci mərtəbədə yerləşir. Beşmərtəbəli binanın digər mərtəbələrinin hər birində, ortada bir vestibül yerləşir ki, əslində dincəlmək və fərdi mütaliə üçün nəzərdə tutulmuş bu otaqllarm hər birində indi sakinlər yaşayır. Yəhya da özündən başqa iki nəfərlə üçüncü mərtəbənin vestibülündə yaşayırdı. Mən isə dördüncü mərtəbədə yaşayıram. Tez - tez onun yaşadığı otağa gedirdim, o da bizə gəlirdi. Çox zaman yataqxanada da, zavodun yeməkxanasında da bir yerdə nahar edirdik.

Baş vermiş hadisə barədə dərhal milis idarəsinə xəbər verdilər. Milis işçiləri gəlib hadisə yerini yoxlamağa başladılar. Hadisə yerində çoxlu laxtalanmış qan var idi. Bu zaman məlum oldu ki, həmin yerdən on beş-iyirmi addım aralıda, Yəhyanın işlədiyi dəzgahların lap yanında olan balaca bir arabanın üstündə də gözlə aydın görünən xeyli qan və qana bulaşmış bir əski var. Hadisə yeri üçüncü sexin sağ qurtaracağındakı relsli kranın düz altındadır.

Hadisə səhərə yaxın baş verib. Yəhya ikinci növbədə işləyirdi. Bizdə ikinci növbənin işi gündüz saat dördün yarısında başlayır və gecə saat on ikidə bitir. Bizim sexdə iş iki növbəlidir, lakin bəzən plan kəsirdə qalanda fəhlələr müvəqqəti olaraq üçüncü növbədə işə çıxırlar.

Dünən gecə biz ikinci növbədəki işimizi bitirib evə getmək istəyərkən, Yəhya tək qalıb üçüncü növbədə də işləməyi qərara aldı, çünki onun hələ emal etmədiyi xeyli hazır detal yığılıb qalmışdı. Onun bu təşəbbüsü humanist məqsəd güddüyü üçün bunu yalnız alqışlamaq olardı, çünki iki növbədə ardıcıl işləmək həm çətindir, həm də alicənablıq və əməyə şüurlu münasibətin nümunəsi deməkdir. Briqadamızın başçısı Əsədov Cəmaləddin onun iki növbədə qalıb işləməsinə razılıq verdi, çünki son vaxtlar planımız bir qədər kəsirdə qalırdı. Amma onu buna heç kəs məcbur etmədi, o, öz xahişinə əsasən qalıb işlədi. Həm də o, tək deyildi, belə ki, briqadanın İsayev Əlisa adlı digər bir üzvü də onunla yanaşı üçüncü növbədə qalıb işləmişdi. Əlisanın işlədiyi dəzgahlar frezer dəzgahlarından sonra yerləşir və onların arasında cəmi üç-dörd metr məsafə var idi.

Zavodun tibb məntəqəsi gecə səhərə qədər işləyir, sexdə isə cəmi iki nəfər - Əlisa ilə Yəhya olublar. Əgər iş vaxtı Yəhyanın üstünə kənardan basqın edilsəydi, yaxud o, dəzgah arxasında işləyərkən bədbəxt hadisə nəticəsində yaralansaydı, yaxud ağılsızlıq üzündən kranın üstünə dırmaşıb oradan yıxılsaydı, Əlisa hökmən bütün bunları görməliydi, təcili olaraq növbətçilərə xəbər verməli və tibb məntəqəsinə müraciət etməli idi, lakin o, bunların heç birini etməmişdi. Onun bu hərəkətləri açıq-aydın şübhə doğururdu, odur ki, milis işçiləri Əlisanı səhər tezdən yataqxanada, öz otağında yatdığı yerdə həbs etdilər.

Yaralı Semaşko adına xəstəxanaya çatdırılanda artıq səhər saat 8 idi. Onun əl-ayağı soyumuşdu, ürəyi çox zəif döyünürdü. Həkimlər müəyyən etdilər ki, o, üç litrə qədər qan itirib. Ona müvafiq qaydada iynələr vurdular , lakin vaxt keçdikcə yaralının üzündəki həyat əlaməti zəifləməyə başlayırdı. Xülasə, həkimlər çox çalışdılar, lakin Yəhyanı ölümün amansız pəncəsindən xilas edə bilmədilər. Gündüz saat 2-də onun ürəyi dayandı və həkimlər meyiti yardılar.

Müayinə nəticəsində aşkar edildi ki, oğlanın başı və beli bir neçə yerdən bərk əzilib. Ona başqası tərəfindən zərbə endirildiyi və bu zərbənin kim tərəfindən endirildiyi məlum deyil. Hadisə yerini nəzərdən keçirdikdə ilk baxışdan adama elə gəlir ki, Yəhya kranın üstünə çıxmış, tavandan asılmış beş yüz voltluq lampalardan birini açmaq istəyərkən ayağı sürüşmüş, 6-7 metr hündürlükdən uçaraq beton döşəməyə çırpılmışdır. Əgər belə olsaydı, çox güman ki, canı dərhal çıxardı, ya da dərisi döşəməyə dəyən yerdən çapılıb soyulardı. Kranın üstünə baxan qapı açıq qalmışdı ki, bu faktın özü də Yəhyanın krandan yıxılması ehtimalına xidmət edirdi. Həm də hadisə yerinin üstündə yerləşən lampanı açmaq üçün relsli kranın üstü ilə düz ortaya qədər gəlmək lazım idi. Bu faktı dəqiqləşdirmək üçün kranın üstünü yoxladılar, lakin orda heç bir ayaq izi tapmadılar. Bundan əlavə, zavodun ərazisindəki ikinci və dördüncü sexlərdən də qan izləri aşkar edildi.

Bu faktın özü bəzi mülahizələr yürütməyə əsas verir. Görünür ki, hadisəni törədənlər bir, yaxud iki nəfər olub. Onlar ölümcül hala saldıqları oğlanı tokar dəzgahlarının yanından tapılmış , üstündə qan izləri aşkar edilən balaca arabanın üzərinə uzadaraq ikinci sexə gətiriblər. Burada yəqin ki, onu böyük bunkerə atıb xırda dəmir qırıntılarının altında basdırmaq istəyiblər. Lakin bunkerdə qırıntı az olduğu üçün arabanı burdan dördüncü sexə sürüblər və yaralını detalları qızardan yerdə min volta qədər elektrik cərəyanı buraxılmış yoğun, közərmiş spiralların üstünə tullamaq istəyiblər. Bu zaman yaxınlıqda adam olduğunu hiss edib geri qayıdıblar və yaralını kranın altına tullayıb qaçıblar. Bütün bunlar hələ ki, ehtimaldır, əsil həqiqəti isə milis işçiləri aşkara çıxarmalıdır.

İşdə çox pis əhvali-ruhiyyə içində idim. Bizim briqadiri, sexin baş ustasını, briqadamızın başqa bir neçə işçisini milis idarəsinə çağırmışdılar. İşin axırına yaxın dəzgah arxasında yalnız mən qalmışdım. İşdən sonra mən vestibülə, Yəhyanın dünənə qəədər yaşadığı otağa baş çəkdim. Atası rayondan, böyük qardaşı isə Sumqayıtdan gəlmişdi. Hər ikisinin ağlamaqdan gözləri şişib qızarmışdı. Bu acınacaqlı mənzərəni seyr etmək mənim üçün çox ağır idi, odur ki, burda dura bilməyib öz otağıma qalxdım, bir stəkan soyuq su içib çarpayıma uzandım, lakin səhərə kimi gözümə yuxu getmədi.

**28 MART - 1976.** Bir neçə gün əvvəl yurdumuza qədəm qoyan bahar insanlara bir dünya sevinc, səadət, xoşbəxtlik gətirməlidir. Bu günəşli bazar günündə təbiət də sanki insüanların üzünə gülümsəyir. Lakin bu gün Yəhyanın ata-anasının, dostlarının, qohumlarının ürəyində dərin bir kədər var, çünki onlar 20 yaşlı əzizlərini həmişəlik itiriblər. Bu gün oğlanın cənazəsi xəstəxanadan çıxarıldı və dəfn edilmək üçün rayona aparıldı.

**19 APREL.** Dünən Kitab pasajında tanınmış yazıçılarla növbəti görüş keçirildi. Bu ənənəvi tədbirdə görkəmli qələm sahiblərindən Süleyman Rəhimov, Bayram Bayramov, Tofiq Bayram, Osman Sarıvəlli və başqaları iştirak edirdi. Bu gün isə Xəzər Dəniz Gəmiçiliyi İdarəsinə məxsus yataqxananın klubunda dənizçilərlə şairlərin görüşü keçirildi. Görüşdə şairlərdən Söhrab Tahir, Xəlil Rza, Fikrət Sadıq, ədəbi gəncliyin nümayəndələrindən Bəxtiyar Cahangirov, Zəlimxan Yaqub, Kazım Kazımov və mən iştirak . Digər şairlər kimi mən də öz şeirlərimi söylədim və alqışlarla qarşılandım.

**21 APREL.** Bu gün yaşadığım yataqxananın qırmızı guşəsində konsert oldu. Tədbirdə zavodun rəhbər işçilərindən Həmkarlar təşkilatının sədri Ramiz Məmmədov, zavod partiya təşkilatının katibi və başqa şəxslər iştirak edirdi. R.Məmmədov əsasən zavod işçilərindən ibarət olan ansamblın üzvlərinə və solistlərə Fəxri Fərmanlar təqdim etdi. Bir neçə al-əlvan musiqi nömrəsindən sonra söz mənə verdilər. Mən bu tədbirdə öz şeirlərimlə çıxış etdim və alqışlarla qarşılandım.

**15 OKTYABR - 1976.** Sentyabr ayında sanki passivləşmişdim. Gündəlikdə qeydlər aparmadım. Heç bir təzə şeir və hekayə yazmadım. Amma bekar da durmadım. Çoxlu qəzet, jurnal, kitab mütaliə etdim. Keçən bu günlər ərzində dahi Səməd Vurğunun anadan olmasının yetmiş illiyinə həsr olunmuş ədəbi-bədii gecə keçirmək üçün səylə hazırlaşırdım. Gecəyə şairlərdən Söhrab Tahiri, Nəriman Həsənzadəni, Məmməd Arazı, Zəlimxan Yaqubu, Vaqif Bəhmənlini, Kamil Bağırovu və başqalarını dəvət etmişdim. Lkin bu gün Nəriman Həsənzadəni qəflətən raykoma çağırdılar, Məmməd Arazın yanına isə Gürcüstandan dostları qonaq gəldilər. Ona görə də bu şairlərin hər ikisi görüşə gələ bilməyəcəklərini əvvəlcədən bildirdilər. Təhlükəli vəziyyət yarandı. Afişalar bir neçə gün idi ki, asılmışdı. Bu iki şairin adları isə afişalarda iri hərflərlə yazılmışdı. Tədbiri V.İ.Lenin adına Toxuculuq Kombinatının mədəniyyət evində keçirmək nəzərdə tutulmuşdu. Tədbir axşam saat 7-də başlandı. Pərdə açıldı. Səhnədəki iri stolun arxasında Söhrab Tahir, Zəlimxan Yaqub, gənc satirik şair Telman Abbasov, kombinat Həmkarlar təşkilatının sədri Mais Məmmədov oturmuşdu. Mən də onların arasında idim.

Tədbiri giriş sözü ilə Mais Məmmədov açdı, sonra isə çıxış üçün sözü sözü S.Tahirə verdi. S.Tahir S.Vurğun haqda öz səmimi ürək sözlərini söylədi. Sonra mənə söz verildi. Yüzlərlə baxış mənə zillənmişdi. Yüksək tribunadan çıxış edib böyük auditoriya qarşısında qarşısında söz demək heç də asan məsələ deyil. Bunun üçün sərbəst və səlist nitq q qabiliyyəti, həddindən artıq zəngin daxili aləm, ən başlıcası iə istedad lazımdır.

Bunların məndə nə dərəcədə olduğunu deyə bilmərəm, amma deyəsən nitqim zalda əyləşənlərin xoşuna gəlmişdi. Həm də S.Vurğun elə böyük sənətkardır ki, onun haqqında həyəcansız danışmaq mümkün deyil. Mən böyük şairin haqqında ürəyimin dərinliyindən gələn səmimi sözlərlə çıxış etdim, şairin şeirlərindən çoxlu misallar gətirdim və ona həsr etdiyin "Bəşər oğluna" adlı şeirimi söylədim. Daha sonra öz şeirlərimdən üçünü söylədim. Məndən sonra sinəsi odlu-alovlu sözlərlə dolu olan qeyri-adi dərəcədə fitri istedad sahibi olan Zəlimxan Yaqub çıxış etdi. Axırda satirik şair Telman Abbasov çıxış etdi və çıxışının sonunda söylədiyi duzlu - məzəli şeirləri ilə zaldakıların yorğunluğunu çıxardı. Bununla da gecənin ədəbi hissəsi sona çatdı.

Bədii hissədə mədəniyyət evinin nəzdində fəaliyyət göstərən Xalq teatrının aktyorları "Vaqif" və "Fərhad və Şirin" tamaşalarından parçalar göstərildi. Daha sonra burda özfəaliyyət kollektivi kimi yaradılmış və ötən illər ərzində dəfələrlə respublika miqyaslı yaradıcılıq müsabiqələrinin qalibi olmuş "Sahil" Xalq çalğı ansamblının iştirakı ilə S.Vurğunun sözlərinə yazılmış mahnılar ifa edildi.



*(Davamı var)*

***Bayram AFURCALI***